**“Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi blankının ciddi hesabat sənədi kimi uçotu Qaydaları”nın və Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının 1.2.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi blankının ciddi hesabat sənədi kimi uçotu Qaydaları” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin təsviri” təsdiq edilsin (2 nömrəli əlavə).

3. “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin spesifikasiyası" təsdiq edilsin (3 nömrəli əlavə).

4. “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin nümunəsi” təsdiq edilsin (4 nömrəli əlavə).

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin blanklarının qanunvericiliklə müəyyən edilmiş qaydada hazırlanmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 7 fevral 2014-cü il
№ 39

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 7 fevral tarixli 39 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi blankının ciddi hesabat sənədi kimi uçotu**

**Q A Y D A L A R I**

## 1. Ümumi müddəa

1.1. Bu Qaydalar "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının 1.2.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi (bundan sonra - iş icazəsi) blankının ciddi hesabat sənədi kimi uçotu qaydalarını müəyyən edir.

## 2. İş icazəsi blankının sifarişi və alınması qaydası

2.1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin təqdim etdiyi tələbata uyğun olaraq, iş icazəsi blankının sifariş edilməsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir. İş icazəsi blankının hazırlanması ilə əlaqədar xərclər Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi üzrə müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilir.

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi çap olunmuş iş icazəsi blankının Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin müraciətinə əsasən ona verilməsini təmin edir.

## 3. İş icazəsi blankının uçotunun aparılması

3.1. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti hər rübdən sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş formada rüb ərzində verilmiş iş icazəsi blankları barədə hesabatı həmin Nazirliyə təqdim edir.

3.2. İş icazəsi blankının ciddi hesabat sənədi kimi Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin anbarında saxlanılmaqla uçotu aparılır. Azərbaycan

Respublikasının Dövlət Miqrasiya Xidməti rəhbərinin icazəsi ilə iş icazəsi blankı anbardan təhtəlhesab şəxslərə (icraçılara) qaimə-faktura əsasında verilir. Maddi-məsul şəxslər Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəhbərliyi tərəfindən müəyyən edilir.

3.3. İş icazəsi blankının ilkin uçotu qeydiyyat kitabında aparılır. İş icazəsi blankının qeydiyyat kitabının səhifələri ardıcıl nömrələnməli, qaytanlanmalı və sonuncu səhifə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəhbəri və baş mühasibi tərəfindən imzalanaraq möhürlənməlidir. Qeydiyyat kitabı elektron üsulla (kompyuterlə) aparıldıqda, məlumatlar hesabat dövrünün sonunda (ay, rüb və ya il) elektron formada işlənilir.

3.4. İş icazəsi blanklarının cırılmasına, ləkələnməsinə və üzərində düzəlişlərin aparılmasına yol verilmir.

3.5. Zədələnmiş və ya korlanmış iş icazəsi blanklarının Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən növbəti yoxlama (təftiş) keçirilənədək üzərində "korlanıb" sözü yazılmaqla, mühasibatlıqda saxlanılması təmin edilir.

3.6. Zədələnmiş və ya korlanmış iş icazəsi blankları məhv edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 7 fevral tarixli 39 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2 nömrəli əlavə**

**Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin**

**T Ə S V İ R İ**

1. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi (bundan sonra - iş icazəsi) açıq-göy rəngli olmaqla A4 formatdadır.

2. İş icazəsinin:

2.1. yuxarı orta hissəsində Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsviri verilir və gerbin təsvirindən aşağıda alt-alta "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MİQRASİYA XİDMƏTİ / STATE MIGRATION SERVICE OF THE REPUBLIC OF AZERBAIJAN", "AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ HAQQI ÖDƏNİLƏN ƏMƏK FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLMAQ ÜÇÜN ƏCNƏBİLƏRƏ VƏ YA VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRƏ VERİLƏN İŞ İCAZƏSİ / WORK PERMIT ISSUED TO FOREIGNERS OR STATELESS PERSONS FOR CARRYING OUT PAID LABOUR ACTIVITY IN THE TERRITORY OF THE REPUBLIC OF AZERBAIJAN" sözləri yazılır;

2.2. orta hissəsində iki latın hərfindən ibarət olan seriya (İİ) və yeddirəqəmli nömrə yazılır;

2.3. orta hissəsinin solunda aşağıya doğru ardıcıllıqla "İşə cəlb edilən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs/Employed foreigner or stateless person", "Soyadı/Surname", "Adı/Name", "Doğum tarixi/Date of birth", "Cinsi/SEX", "Vətəndaşlığı/Citizenship", "Sərhədkeçmə sənədinin seriyası və nömrəsi/Series and number of border crossing document", "Tutduğu vəzifə/Position", "İş yerinin ünvanı/Working address", "İşəgötürən/Employer", "Hüquqi şəxsin, xarici hüquqi şəxsin filial və nümayəndəliyinin/fiziki şəxsin adı / Name of juridical person, branch or representation of foreign juridical person/physical person", "Fəaliyyət sahəsi/Activity area", "VÖEN (qeyri-kommersiya hüquqi şəxsləri üçün qeydiyyat nömrəsi)/TIN (registration number for non-commercial juridical persons)", "Ünvanı/Address" sözləri yazılır;

2.4. aşağı hissəsinin solunda möhür üçün yer nəzərdə tutulur və ondan sağda aşağıya doğru ardıcıllıqla "Vəzifəli şəxsin imzası/Signature of authorized person", "Verildiyi tarix/Date of issue", "Etibarlıdır/Valid until" sözləri yazılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 7 fevral tarixli 39 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli əlavə**

**Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin**

**SPESİFİKASİYASI**

1. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi (bundan sonra - iş icazəsi) bir səhifədən ibarətdir. Kağızının tərkibi 30 faiz pambıq və 70 faiz sellülozdan olan iş icazəsi rəqəmsal ofset üsulla çap edilir. Kağız və istifadə olunan boya iş icazəsinin lazer printerində çap edilməsi üçün müvafiq hərarət dərəcəsinə davamlı olmalıdır.[1]

2. İş icazəsinin üzərində görünən və görünməyən formada Azərbaycan Respublikasının simvolları, mərkəzi hissəsində böyüdülmüş formada yarımşəffaf şəkildə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi embleminin təsviri göstərilir.

3. İş icazəsinin səthi hamardır. Kağızın tərkibində görünən fluoressent liflər vardır. İş icazəsinin istehsalı üçün istifadə olunan kağız optik cəhətdən ultrabənövşəyi şüaları buraxmır. İstehsalında gilyoş, mikro çap və qabarıq çap üsullarından istifadə edilir.

4. İş icazəsinin şəxsi məlumatlara aid hissəsi "göy qurşağı" çap üsulu ilə təsvir olunur. "İŞ İCAZƏSİ" və "WORK PERMIT" sözlərinin yazılışında optik dəyişən mürəkkəbdən istifadə edilir. İş icazəsinin üzərində olan seriya və nömrələr maqnetik mürəkkəblə çap edilir. İş icazəsinin bir sıra elementləri infraqırmızı optik mürəkkəblə təsvir olunur və qoruyucu əlamətlər iş icazəsinin üzərində proporsional şəkildə yerləşdirilir.

5. İş icazəsi üçün istifadə olunmuş kağız və boya ən azı 10 (on) il öz keyfiyyətini və xüsusiyyətlərini saxlamalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 7 fevral tarixli 39 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**4 nömrəli əlavə**

**Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin**

**NÜMUNƏSİ**



**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MİQRASİYA XİDMƏTİ**
**STATE MIGRATION SERVICE OF THE REPUBLIC OF AZERBAIJAN**

AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ HAQQI ÖDƏNİLƏN ƏMƏK FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLMAQ ÜÇÜN ƏCNƏBİLƏRƏ VƏ YA VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRƏ VERİLƏN

**İŞ İCAZƏSİ**
**WORK PERMIT**

ISSUED TO FOREIGNERS OR STATELESS PERSONS FOR CARRYING OUT PAID LABOUR ACTIVITY IN THE TERRITORY OF THE REPUBLIC OF AZERBAIJAN

Seriya/*Series* II № 0000000

**İşə cəlb edilən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs**
*Employed foreigner or stateless person*

Soyadı ____________________
*Surname*

Adı ____________________
*Name*

Doğum tarixi ____________________
*Date of birth*

Cinsi ____________________
*Sex*

Vətəndaşlığı ____________________
*Citizenship*

Sərhədkeçmə sənədinin seriyası və nömrəsi ____________________
*Series and number of border crossing document*

Tutduğu vəzifə ____________________
*Position*

İş yerinin ünvanı ____________________
*Working address*

**İşəgötürən**
*Employer*

Hüquqi şəxsin, xarici hüquqi şəxsin filial və nümayəndəliyinin /fiziki şəxsin adı ____________________
*Name of juridical person, branch or representation of foreign juridical person/physical person*

Fəaliyyət sahəsi ____________________
*Activity area*

VÖEN (qeyri-kommersiya hüquqi şəxsləri üçün qeydiyyat nömrəsi) ____________________
*TIN (registration number for non-commercial juridical persons)*

Ünvanı ____________________
*Address*

Vəzifəli şəxsin imzası ____________________
*Signature of authorized person*

Verildiyi tarix ____________________
*Date of issue*

M.Y.
stamp

Etibarlıdır ____________________
*Valid until*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 25 iyun 2014-cü il tarixli **203** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 16 iyul 2014-cü il, № 150; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 897)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 25 iyun 2014-cü il tarixli **203** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 16 iyul 2014-cü il, № 150; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 897)** ilə "Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin spesifikasiyası"nın 1-ci hissəsinin ikinci cümləsində "**100 faiz sellülozdan olan iş icazəsi çoxçalarlı intaqlio və metalloqrafik**" sözləri "**30 faiz pambıq və 70 faiz sellülozdan olan iş icazəsi rəqəmsal ofset**" sözləri ilə əvəz edilmişdir.